DOI: https://doi.org/10.36719/3005-3137/7/28-37

**Sədaqət Həsənova**
Naxçıvan Dövlət Universiteti
Filologiya elmləri doktoru, professor
https://orcid.org/ 0009-0002-9996-6229
sedagethesenova@gmail.com

# Bəxtiyar Vahabzadənin dilində nida cümlələrinin rolu

## Xülasə

Nida cümlələri sintaksisin maraqlı nümunələrindəndir. Onlar duyğuları çatdırmaq üçün istifadə olunan adi cümlələr kimi görünsə də, həm yazılı, həm də şifahi nitqdə zəngin üslub potensialına malikdir. Məqalədə Bəxtiyar Vahabzadənin dilində nida cümlələrinin üslub imkanları araşdırılır. Bu cümlələrin bədii dildə istifadə zamanı ifadə etdiyi müxtəlif emosional təsirin təhlili vasitəsilə şairin yaradıcılığında hansı mövqeyə malik olması göstərilir. Nida cümlələrinin şeirlərin dilinə, xarakterlərin inkişafına və oxucu və ya dinləyicinin diqqətinin cəlb edilməsinə təsirini təsdiq edən məqamlar üzə çıxarılır. Məqalənin məqsədi ədəbi şeir dilində nida cümlələrinin üslub imkanlarını təqdim etməkdir. Bu cümlələrin funksiyası emosiyaların ötürülməsi, vurğu yaratmaq və diqqəti önəmli məsələlərə cəlb etməkdir. Təəccüb, sevinc, qəzəb və ya həyəcan kimi güclü duyğuları ifadə edən cümlə növü kimi nida cümlələrinin sonunda, adətən, nida işarəsi qoyulur. Bu işarənin özü də təsirlidir. Belə ki, danışıq dilində xüsusi intonasiya cümlənin nida xarakterini bildirməkdə mühüm rol oynayır, tez-tez səs tonunun və ya həcminin dəyişməsi ilə müşayiət olunur. Lakin yazılı nitqdə bu vəzifə durğu işarəsinin üzərinə düşür. Nida cümlələri ifadəli, emosional çalarlarla əlaqələndirilsə də, onlar sadə ünsürlərdən tutmuş daha mürəkkəb konstruksiyalara qədər müxtəlif formalarda işlənə bilər. Bu cümlələrin müəyyənedici xüsusiyyəti yüksək emosiya və ya vurğunun ötürülməsidir ki, bu da onları nitqə və ya yazıya intensivlik əlavə etmək üçün xüsusilə güclü bir vasitə halına gətirir. Azərbaycan bədii dilində nida cümlələri üslubi xüsusiyyətlərinə görə seçilən cümlə növlərindən biridir. Bu cümlələrdən bir şeyə təəccüb, heyrət, inam, ehtiras və digər duyğuları ifadə etmək üçün istifadə olunur. Nida cümlələri təkcə üslubiyyat deyil, həm də qrammatik baxımdan çox zəngin və müxtəlifdir. Onlar insanın daxili dünyasını əks etdirmək, konkret bir vəziyyətə cavab olaraq münasibət göstərmək və ya çağırış etmək üçün müxtəlif imkanlara malikdir. Nida cümlələrinin üslub imkanlarına müxtəlif aspektlərdən nəzər yetirmək maraqlı linqvistik

məsələlərdən biridir. Belə ki, nida cümlələrinin sintaksisi müxtəlif və maraqlıdır. Azərbaycan bədii dilində nida cümlələrində çox vaxt ifadənin estetik gücünü artırmağa xidmət edən dil elementləri iştirak edir. Bu fikirlərin əsaslandırılması üçün məqalənin Bəxtiyar Vahabzanin dilində nida cümlələrinə həsr edilməsi onun aktuallığını göstərir.

***Açar sözlər**: dil, söz, üslub, şeir, nida.*

**Sadagat Hasanova**
Nakhchivan State University
Doctor of philological sciences, professor
https://orcid.org/ 0009-0002-9996-6229
sedagethesenova@gmail.com

## The role of exclamation sentences in the language of Bahktiiar Vahabzade

### Abstract

Exclamation sentences are interesting examples of syntax. Although they seem like ordinary sentences used to convey emotions, they have a rich stylistic potential in both written and oral speech. The article examines the stylistic possibilities of exclamation sentences in the language of Bakhtiyar Vahabzade. The analysis of the various emotional effects expressed by these sentences when used in artistic language shows what position they have in the poet's work. The points that confirm the influence of exclamation sentences on the language of poems, the development of characters, and attract the attention of the reader or listener are revealed. The aim of the article is to present the stylistic possibilities of exclamation sentences in the language of literary poetry. The function of these sentences is to convey emotions, create emphasis, and draw attention to important issues. Exclamation sentences, as a type of sentence expressing strong emotions such as surprise, joy, anger, or excitement, are usually marked with an exclamation mark. This sign itself is effective. Thus, in colloquial speech, a special intonation plays an important role in expressing the exclamatory character of a sentence, often accompanied by a change in tone or volume. However, in written speech, this task falls to punctuation marks. Although exclamatory sentences are associated with expressive, emotional shades, they can be used in various forms, from simple elements to complex constructions. The defining feature of these sentences is the transmission of high emotion or emphasis, which makes them a particularly powerful tool for adding intensity to speech or writing. In the Azerbaijani literary language, exclamatory sentences are a

type of sentence that is distinguished by its stylistic characteristics. These sentences are used to express surprise, amazement, belief, passion and other emotions about something. Exclamatory sentences are very rich and diverse not only in terms of style, but also in terms of grammar. They have various possibilities for reflecting a person's inner world, showing an attitude or making a call in response to a specific situation. One of the interesting linguistic issues is to look at the stylistic possibilities of exclamatory sentences from different aspects. Thus, the syntax of exclamatory sentences is diverse and interesting. In the Azerbaijani literary language, exclamatory sentences often contain linguistic elements that serve to increase the aesthetic power of expression. The fact that the article is devoted to exclamatory sentences in the language of Bakhtiyar Vahabza in order to substantiate these ideas shows its relevance.

***Key words**: language, word, style, poetry, exclamatory sentence*

## Giriş

Nida cümlələri tez-tez yüksək emosional intensivliyi ifadə edərək, bir sıra hissləri bildirən bir vasitə kimi bədii dildə məzmun keyfiyyəti yaradır. Bu cümlələr şəxsi reaksiyaları canlı şəkildə çatdırmaq üçün bədii əsərlərin dilinin emosional səviyyəsini yüksəldir. Emosionallıq çox vaxt danışanın səs tonu, bədən dili və dinləyici ilə sosial münasibəti kimi amillərdən asılı olsa da, yazılı nitqdə bunları nida ilə bildirmək mümkündür. Nida cümlələri necə çatdırıldığından və qəbul olunduğundan asılı olaraq sosial münasibət qurmağa və ya emosionallığı bildirməyə kömək edir. Bədii dildə xarakterlərin inkişaf edən emosional vəziyyətlərini əks etdirmək üçün nidalardan çox istifadə olunur. Təmkinli nitqdən tez-tez nidalara keçid xarakterin artan narahatlıq, sevinc və ya ümidsizlik kimi emosional hisslərini ifadə edə bilər.

Nida cümlələri fikrin tonunu və sürətini təyin etmək üçün də önəmlidir. Bu baxımdan, şairlər daha çox ölçülüb-biçilmiş nitqin axınını pozmaq, həyəcan və ya təəccüb hissi yaratmaq üçün nidalardan məqsədli şəkildə istifadə edirlər. Deməli, nida cümlələri dildə emosional məzmunu gücləndirir, onlar gərginlik yaratmaq və oxucu və dinləyicilərdə müxtəlif duyğular yaratmaq üçün vasitələrlə zəngindir. Bu vasitələrin aydınlaşdırılmasında bədii dil əhəmiyyətlidir.

### Tədqiqat

Nida cümlələrinin əsas səciyyəvi cəhəti onların emosional tonudur. “Nida cümlələri həm danışanın emosional duyğu və həyəcanlarını, həm də onun başqa şəxs və əşyalara olan emosional-əqli münasibətlərini ifadə edə bilir” (Abdullayev, 2007, s. 101). Dilçilik ədəbiyyatlarında nida haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Etimoloji cəhətdən nidanın bir, iki, üç, dörd səsdən ibarət olan əsli nidalar və əsas

nitq hissələri ilə əlaqədar olan törəmə nidalar ilmaqla iki qrupa ayrılması və törəmə nidaların aid olduqları nitq hissələrindən ayrılaraq hiss-həyəcan bildirmək vasitəsinə çevrilməsi mülahizəsi maraqlıdır (Hümmətova, 2019, s. 324-325). Mülahizələrin bəzisində nida cümlələrinin nəqli cümlələrin və əmr cümlələrinin əsasında yaranması və bu cümlə növlərinin müəyyən şəraitdə, yeni xüsusiyyətlər kəsb edərək nida cümləsinə çevrilə bilməsi məsələsinə də rast gəlirik (Həmidova, 2026, s. 11). Nida cümlələri ilə bağlı elmi-nəzəri fikirlər müəyyən qədər bir-birindən seçilsə də, onların, demək olar ki, hamısında nidanın emosionallıq cəhəti qeyd olunur: "Söylənilən fikrə emosional münasibət bildirən cümlələrə nida cümlələri deyilir" (Quliyeva, 2018, s. 87). Nidanın emosionallıq bildirməsi onun daha çox vurğulanan cəhətidir. "Nida – hər hansı emosional durğunu bildirən söz və cümlədən sonra qoyulur" (Hüseynova, 2016, s. 56). Məlumdur ki, dilimizdəki cümlələr üzvlənən və üzvlənməyən olmaqla iki bölməyə ayrılır və "fikrin əsas ifadə vasitələri üzvlənən cümlələrdir" (Məmmədova, 2024, s. 254). Maraqlıdır ki, üzvlənməyən cümlələrdə də nidanın əhəmiyyətli rolu vardır. Nida cümlələrinin formalaşmasında melodiyanınn əhəmiyyətini göstərən elm adamları da vardır: "Cümlənin tələffüzündə melodiya semantik-sintaktik rol oynayır. O, intonasiyanın başlıca tərkib hissələrindən biri olmaqla nitqdə təsdiq, sual, əmr, nida və s. cümlə tiplərinin formalaşmasına xidmət edir" (İsmayılova, 2017, s. 10). Bədii əsərlərdə nida cümlələri insanın hiss və duyğularını əks etdirərək çox güclü bir təsir yaratmağa imkan verir. Bu baxımdan, xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı diqqəti cəlb edir. Şairin dilində nida cümlələri hər hansı bir hadisəyə və ya vəziyyətə münasibət bildirməklə meydana gəlir və bu da onların emosional intensivliyini çoxaldır. Əksər hallarda, bu cümlələr, şairin öz ifadə gücünü daha aydın və təsirli şəkildə bildirməsinə imkan verir. Bəzən xüsusi intonasiya ilə formalaşan nida cümləriondə heç bir nida sözü işlənmir. Lakin fikrin təsiri onun nida cümləsi olduğunu göstərir və bu xüsusiyyətin daşıyıcısı durğu işarəsi olur:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır! (Vahabzadə, 2004, s. 6).

Bəxtiyar Vahabzadənin dilində fikrin intensivliyini təmin edən vasitələrdən biri kimi nida cümlələrinin əhəmiyyəti çoxdur. Şair bu cümlələrin, emosional-ekspressiv funksiyada işlənmə imkanlarından sənətkarlıqla istifadə etmişdir:

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın.
Sağlığım bir yana, a dostlar, mənim;
Soyuq məzarım da heç tək olmasın! (Vahabzadə, 2004, s. 11).

Bəxtiyar Vahabzadənin Azərbaycan ədəbi dilində və mədəniyyət tarixində böyük rolu vardır. Ümummilli lider Heydər Əliyev onun haqqında demişdir: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlal uğrunda mübarizədə əvəzsiz rol oynamışıdır" (3, 369). Şairin bu xüsusiyyətlərini ortaya çıxaran onun əsərləri və mənasına bələd olduğu, möhtəşəmliyi ilə öyündüyü ana dilidir. Bəxtiyar Vahabzadə dilimizin bütün sintaktik vahidlərinə müraciət etsə də, onun poeziyasında nidalar şairin əhvalını, daxili duyumunu tənzimləyən vasitə kimi meydana çıxır. Şair çox vaxt nida sözləri olmadan da duyğuların meydanını genişləndirir, onlara yeni təravət verir və durğu işarəsinə ehtiyacı olan cümlələr nida sözlərindən az təsir etmir. Ona görə ki, intonasiya fikirləri xüsusi ahəngə salır və bununla da bədiilik güclənir:

Bir rəngi yox, göylərin min rəngini sevirəm.
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm! (Vahabzadə, 2004, s. 13).

Şeir bəndinin sonunda nidalaşan misra iki sözdən ibarət olsa da, özündən əvvəlki misraların məzmunundan yaranan hissləri də özündə cəmləşdirir.

Nida cümlələri, yalnız duyğu ifadəsi ilə kifayətlənmir, onlar həm də üslubun müxtəlif çalarlarını göstərmək üçün geniş imkanlara malikdir. Məsələn, Bəxtiyar Vahabzadənin dilində nida cümlələri oxucunun diqqətini çəkmək və ya müəyyən bir vəziyyəti, hadisəni vurğulamaq məqsədi daşıyır. Bu, şairin dilinə estetik gözəllik verir:

Yazıq o kəsə ki, yoxdur bir şeyə
Nə sonsuz nifrəti, nə məhəbbəti! (Vahabzadə, 2004, s. 55).

Nida cümlələri ritm, intonasiya və səs təkrarı ilə zənginləşdirildikdə, fikrin mənasını daha da dərinləşdirir. Məsələn, aşağıdakı nümunədə inkar ədatının xüsusi intonasiyası onun nida mövqeyində işlənməsinə təsir edir:

Kimdir mənim
Düşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Yox!
Eyblərimi deyib
Arxamca gülənmi?
Yox !..
Mənim nöqsanlarımı
Məndən yaxşı bilənmi?
Yox! Yox! Yox! (Vahabzadə, 2004, s. 13).

Burada nida işarəli “yox” sözü inkarçılıq xüsusiyyəti ifadə etmək üçün işlənmişdir. Bundan başqa, ondan təkrarlama və vurgulama vasitəsi kimi də istifadə olunmuşdur. Şairin dilindəki nida xarakterli dil vahidləri göstərir ki, nidanın bir neçə dəfə təkrarı ilə daha təsirli və vurğulu bir ifadə yaradıla bilər. “Azərbaycan bədii dilində geniş şəkildə işlənən təkrir növləri sırasında cümlənin təkrarı xüsusi üslubi əhəmiyyətə malikdir” (Bəylərova, 2008, s. 101). Təkrarlar, həmçinin şeir dilinin emosional yükünü artırır və onun gücünü daha çox nəzərə çatdırır:

Məni yandırsalar da,
Suda batırsalar da,
Yenə mənəm, mən mənəm! (Vahabzadə, 2004, s. 32).

Bəzi cümlələrdə nidalardan bir çağırış və ya hərəkətə yönəldən ifadələr kimi istifadə olunur. Məsələn:

Görsəydim öz-özümü,
Onda mən, mən olardım! Ah! (Vahabzadə, 2004, s. 14).

Bu misralar, bir növ, o vaxta qədərkindən fərqli bir hərəkətə keçməyə təhrik edir və bununla da üslubun güclənməsinə səbəb olur.

Bəzən nida cümlələri sual formasında olan cümlələrə cavab kimi işlədilə bilər. Məsələn:

Məktəbi bitirdim, işə də girdim
Səadət bumudur? Yox, bu deyilmiş! (Vahabzadə, 2004, s. 17).

"Yox, bu deyilmiş!" nidası, həm təəccübü, həm də bir növ cavab axtarışını göstərir. Bəxtiyar Vahabzadə bu cür nida cümlələrindən nitqin məqsədini dəqiqləşdirmək üçün istifadə edir.

Nida cümləɫəri, bədii dilin bir parçası kimi çox vaxt simvolik bir məna daşıyır. Yəni konkret bir mənanı ifadə etmədən, yalnız müəyyən bir təsir yaradır.
Məsələn:

Anam öldü!
Son nəfəs,
Son hıçqırıq,
Son nida!
Bizə dedi əlvida! (Vahabzadə, 2004, s. 17).

Burada "Anam öldü!", "Son nida!", "Bizə dedi əlvida!" cümlələri, təkcə qəmli hadisəni deyil, insanın daxili durumunu da əks etdirə bilir. Bu cür ifadələr, əslində, dərin mənaları və hissləri bildirir.

Nida cümlələri daha çox şeir dilində işlədilir. Şair bu cümlələrin emosional gücündən faydalanaraq yazılarında oxucu və ya dinləyicilərə təsir etməyə çalışır. Nida cümlələri hiss və duyğuları daha dinamik və anlaşılan şəkildə ifadə edə bilir:

Çıraq ol! Nurunu artır günbəgün
Hər yerdə həyatın boğ zülmətini.
Məncə, çıraq olub başqalarıyçün
Yananlar tapıbdır səadətini! (Vahabzadə, 2004, s. 18).

Bəxtiyar Vahabzadənin dilində sual formasında olan nida cümlələrinə də rast gəlmək olar. Bu baxımdan, aşağıdakı nümunə xarakterikdir:

Kim deyir ki, vaxt - zaman
Saat ilə ölçülür?! (Vahabzadə, 2004, s. 19).

Burada "zaman saat ilə ölçülmür" ideyası irəli sürülərək misraların məzmunundakı fikrə qarşı qoyulur.

Anlaya bilmirəm, nə vaxtdan bəri
Yadı yamsılamaq yenilik oldu?! (Vahabzadə, 2004, s. 37).

Nida cümləsinin söz sırasında vurğunun yer dəyişməsi ola bilər. Maraqlıdır ki, dilcilik elmində iddia edilir ki, "nida cümlələrinin yaranma amillərindən biri də söz sırasının pozulmasıdır" (Qasımova, 2022)

Tarixin kölgəsində
Daldalanan millətin
Sabahı olmaz dedim!.. (Vahabzadə, 2004, s. 34)

Burada tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlənin bir sözdən ibarət olan baş cümləsini ifadə edən "dedim" sözü yerini dəyişsə də, hikmətli bir nəsihət ruhlu fikri diqqətə çatdırır. Araşdırma təsdiq edir ki, "söz sırası rəngarəng emosiyaların ifadə vasitəsidir. Bir qayda olaraq emosiyalar sözlərin tərs sırası ilə verilir" (Bəylərova, 2008, s. 69).

Nida cümlələrində üzvlərin hansı nitq hissələri ilə ifadə olunmasının da əhəmiyyəti çoxdur. Bu cəhət cümlənin emosional tonunu formalaşdırmaq üçün açar rolunu oynayır. Bu barədə seçim məsələsi çatdırılan mənanı əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn:

Bizim şeirimizin dünəni kimi
Böyükdür, şanlıdır istiqbalı da!! (Vahabzadə, 2004, s. 34).

Burada sifətlə ifadə olunmuş həmcins xəbərlər "istiqbal" sözünün məna sanbalını ortaya qoyur. Əslində, cümlənin sintaktik quruluşunda ciddi fərq yoxdur, o, şeir dilinin qanunlarına tabedir, lakin sifətin xəbər vəzifəsində işlənməsi cümlənin emosional təsirini tamamilə dəyişir. Bu, lüğətdəki sadə dəyişikliklərə əsaslanan təzadlı emosional reaksiyalar yaratmaq üçün nida cümlələrinin semantik gücünü təsdiq edir. Bu baxımdan, aşağıdakı nümunə də səciyyəvidir:

Eşqiniz - gələcək,
Yaşınız səhər,
Qəlbiniz işıqlı,
hissiniz təzə! (Vahabzadə, 2004, s. 34).

Bu nida cümləsində də sifətdə ellipsis hadisəsinin izi görünsə də, o, xəbər vəzifəsində işlənmişdir. Bu nümunələr nitq hissələrinin nida cümləsinin məzmununa təsirini göstərir. Atalar sözləri də nidanın intensivliyini dəyişdirə bilər. Məsələn:

Biz öz atamıza deyərdik bir vaxt:
"Unutma, hər günün öz hökmü var ha!.."
İndi oğlumuza deyirik ancaq,
"Gəl təzə nırx qoyma köhnə bazara!" (Vahabzadə, 2004, s. 36).

Hər köhnə pis deyil, hər təzə yaxşı! (Vahabzadə, 2004, s. 37).

Bədii dildə nida cümlələrinin inandırıcılıq xüsusiyyəti ilə də qarşılaşmaq olar:

Yağmaq xatirinə yağan yağışın
Nə bağa xeyri var, nə dağa xeyri! (Vahabzadə, 2004, s. 38).

Bəxtiyar Vayhabzadənin yaradıcılığı göstərir ki, şairlər əsas məqamları vurğulamaq, emosiyaları oyatmaq və hərəkətə həvəsləndirmək üçün nidalardan istifadə edirlər.

## Nəticə

Nida cümlələri, sadəcə dilin qrammatik quruluşuna aid deyil, həm də üslubun zənginləşməsində rolu olan, duyğuları və təəssüratları canlı şəkildə ifadə edən cümlə növüdür. Onların gücü insanların hisslərinə birbaşa təsir etmə qabiliyyətindədir. Bəxtiyar Vababzadənin dilindəki nida cümlələri fikirlərin ifadə gücünü artırmağa və oxucuda unudulmaz təsir yaratmağa imkan verir. Şairin yaradıcılığı göstərir ki, nida cümlələri emosional vəziyyətləri vurğulamaq üçün sadə bir vasitədən daha yüksəkdə duran sintaktik vahiddir. İşlənmə tezliyi, semantik zənginliyi və nitqdə çoxşaxəliliyi onları şairlər üçün əvəzolunmaz materiala çevirir.

İstər gözəl anların sevincini, istər təəccüblü bir hadisənin həyəcanını, istərsə də ədalətsizlik və haqsızlıqdan yaranan vəziyyətin məyusluğunu çatdırmaq üçün istifadə olunan nida cümlələri insan duyğularının dərinliyini ifadə etmək üçün qiymətli vasitələrdən biridir. Onların ünsiyyətdəki rolu sadəcə funksional xarakter daşımır, həm də dərin üslub çalarları və poetik xüsusiyyətləri ilə diqqəti çəkir.

## Ədəbiyyat

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Bakı, Şərq-Qərb, 2007, 424 s.
2. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam / Vahabzadə B. (2004). Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, s. 6-7.
3. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadəyə. Heydər Əliyev və mədəniyyət. Bakı, Nurlan, 2008, 369.
4. Bəylərova A. (2008). Bədii dildə üslubi fiqurlar. Bakı, “Nurlan”, 212 səh.
5. Əlizadə, F. (1998). Cümlənin aktual üzvlənməsi. Bakı: Elm, 125 s.
6. Həmidova X. Azərbaycan və ingilis dillərində təktərkibli cümlələrin struktur-semantik xüsusiyyətləri (Azərbaycan və ingilis dillərinin materialları əsasında). Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

avtoreferatı. Bakı – 2021, 30 s.
7. Hümmətova R. Ana dili-II. Dərs vəsaiti. Bakı, 2019, 340 s.
8. Hüseynova M. Azərbaycan dilində durğu işarələrinin tədqiqi məsələləri. Müasir dilçiliyin aktual problemləri. Beynəlxalq elmi konfransın materialları (24-25 noyabr 2016–cı il). Sumqayıt, 2016, s. 55-58.
9. İsmayılova R;. Nitq axınının təşkilində intonasiyanın rolu. "Western Caspian" University № 4, 2017, s. 7-12.
10. Qasımova T. (2022). Sadə cümlənin məqsəd və intonasiyaya görə növlərində söz sırası. https://aem.az/uploads/files/2022-10/1666986973_elmiis-9.pdf
11. Quliyeva A. İngilis və Azərbaycan dillərində sadə cümlə və onun təsnifatı. ipək yolu, No.3, 2018, s. 83-89.
12. Məmmədova L. Cümlə problem kimi: Azərbaycan və alman dilində müqayisəli. Filologiya məsələləri, № 8, 2024, s. 254-259.
13. Vahabzadə B. (2004). Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 s.

**Daxil oldu: 25.05.2025**
**Qəbul edildi: 23.07.2025**